# FM NETWORK MÜSTƏQİL TƏMSİLÇİLİK MÜQAVİLƏSİ

Bu müqavilə «FM» Network MMC ilə Müstəqil Təmsilçiləri arasında bağlanılır və tərəflərin qarşılıqlı hüquqlarını, vəzifə və məsuliyyətlərini nizamlayır. Bu müqaviləni bağlayan şəxs müqavilə imzalandığı andan Müstəqil Təmsilçi kimi tanınacaqdır.

Bu qeydiyyat formasını doldurmaqla və müqaviləni imzalamaqla hər bir şəxs birbaşa olaraq FM Network MMC şirkəti ilə əməkdaşlığını rəsmiləşdirir. FM Network Müstəqil Təmsilçilik Müqaviləsini 18 yaşdan yuxarı olan hər bir şəxs sərbəst və könüllü razılığı əsasında bağlayır.

**Müstəqil Təmsilçinin Statusu və Fəaliyyəti** Müstəqil Təmsilçilik statusu şəxsin öz arzusu ilə istədiyi FM Network məhsulları içərisindən istənilən məhsulu bazar qiymətinə almağa yarayır. FM Network Müstəqil Təmsilçisinin şirkətlə əməkdaşlığı muzdlu işçi, ştat üzrə işçi və rəsmi nümayəndə hesab olunmur. Özünün sahibkarlıq fəaliyyətini öz adından həyata keçirir. FM Network Müstəqil Təmsilçisinin şirkətlə əməkdaşlığı çərçivəsində yaranan məsuliyyət öz üzərinə düşür.

FM Network Müstəqil Təmsilçilik Müqaviləsi işə götürənlə işçi arasında bağlanan müqavilə deyil. Müqaviləyə əsasən şirkət istənilən andan etibarən (əgər təmsilçi şirkətə xələl gətirəcək neqativ hallara yol verərsə) əməkdaşlığa birtərəfli qaydada xitam vermək hüququna malikdir. Müstəqil Təmsilçi də eyni zamanda istədiyi anda FM Network şirkətinə əvvəlcədən məlumat verməklə öz fəaliyyətini dayandıra bilər. Belə olan hallarda şirkət Müstəqil Təmsilçi qarşısında heç bir təzminat öhdəliyi daşımır.

**Sifariş, Çatdırılma və Geri Qaytarılma** Müştəri FM Network məhsullarından hər hansı birini və ya bir neçəsini şirkətin saytından sifariş etdikdən və təhvil aldıqdan sonra məhsula görə ödənilən məbləğ heç bir şərtlə «FM» şirkəti tərəfindən geri qaytarılmır. FM Network Müstəqil Təmsilçisi sifariş etdiyi məhsulu öz istəyi və arzusu ilə şəxsi bank kartı vasitəsilə onlayn olaraq gerçəkləşdirir. Bu prosedur sifarişçinin öz iştirakı və istəyi ilə reallaşdırılır.

FM Network Müstəqil Təmsilçisi FM şirkəti ilə bağlanılan müqaviləni 5 gün ərzində ləğv edə bilər (əgər saytda qeydiyyatdan keçirilməyibsə). FM Network Müstəqil Təmsilçisi «FM Network» şirkəti vasitəsilə sifariş etdiyi məhsul 7–30 gün ərzində çatdırılır (nadir hallarda məhsulun çatdırılması 90 gün çəkə bilər).

Müstəqil təmsilçi sifariş etdiyi məhsulda zavod istehsalı problemi yaranarsa, şirkət yenisi ilə əvəz edir. Qanunvericiliyə uyğun olaraq Müstəqil Təmsilçi 14 gün ərzində məhsulu geri qaytara bilər.

**Statusun Dövr Edilməsi və Yenilənməsi** Müstəqil Təmsilçilik statusu şəxsin öz arzusuna uyğun olaraq şirkət rəhbərliyinin razılığı olarsa, yaxın qohumların adına rəsmiləşdirilə bilər. Bu zaman əvvəl bağlanmış müqavilə öz hüquqi qüvvəsini itirir və göstərilən şəxslə yeni müqavilə bağlanılır. Yeni bağlanmış FM Network Müstəqil Təmsilçilik müqaviləsinə əsasən yuxarıda göstərilən şərtlər daxilində yaranan bütün məsuliyyətlər yeni Müstəqil Təmsilçinin üzərinə düşür.

Müstəqil Təmsilçilik statusunu başqasının adına rəsmiləşdirən və ya öz fəaliyyətini dayandıran FM Network Müstəqil Təmsilçisi yalnız 1 (bir) aydan sonra yenidən Müstəqil Təmsilçilik statusu almaq üçün yazılı ərizə əsasında «FM Network» şirkətinə müraciət edə bilər.

**FERMA TƏSƏRRÜFATI VƏ İNVESTİSİYA ÜZRƏ ƏLAVƏ ŞƏRTLƏR** *Aşağıda qeyd olunan şərtlər FM Network Müstəqil Təmsilçilik Müqaviləsinin ayrılmaz hissəsi hesab olunur və Ferma Təsərrüfatı layihəsində iştirak edən bütün Müstəqil Təmsilçilər üçün məcburidir:*

1. **Fəaliyyətin Mahiyyəti:** Şirkət heç bir şəxsi işlə təmin etmir. FM Network yalnız bir neçə kiçik büdcəli sahibkarın birləşdirilməsi yolu ilə birgə yatırım əsasında təsərrüfatların yaradılmasına vasitəçilik edir. Hər bir Müstəqil Təmsilçi yalnız öz payına düşən məhsulu əldə edir.
2. **Gəlir və Bölgü Prinsipləri:** Təsərrüfatdan əldə olunan gəlir və ya məhsul bölgüsü yalnız artıma əsasən həyata keçirilir. Müstəqil Təmsilçinin payına düşən məhsul yalnız faktiki artım əsasında müəyyən olunur.
3. **Özünü Təmin Etmə Dövrü:** Yatırılan məbləğin tam formalaşmasından və ferma fəaliyyətə başladığı tarixdən etibarən ilk 1 (bir) il təsərrüfatın özünü təmin etmə dövrü hesab olunur. Bu səbəbdən Müstəqil Təmsilçi yalnız 2-ci ildən etibarən məhsul əldə etmək hüququ qazanır.
4. **Sahəyə Uyğun Pay:** Müstəqil Təmsilçi yalnız yatırım etdiyi sahə üzrə məhsuldan pay almaq hüququna malikdir. (Məsələn, toyuqçuluq təsərrüfatına yatırım edən şəxs qoyunçuluq sahəsindən pay tələb edə bilməz. Eyni qayda digər təsərrüfat sahələrinə də şamil edilir).
5. **Məbləğin Geri Qaytarılması və Payın Dövrü:** Ferma fəaliyyətə başladıqdan 1 (bir) il sonra, Müstəqil Təmsilçi fəaliyyətindən razı qalmadığı halda, şirkətə rəsmi bildiriş verməklə 1 (bir) ay müddətində yalnız fermaya yatırılmış əsas məbləğin geri qaytarılmasını tələb edə bilər. Eyni zamanda, Müstəqil Təmsilçi gələcəkdə ilk növbədə fermerə təklif etməklə, öz payını üçüncü şəxsə devr etmək hüququna malikdir.
6. **Məlumatlandırma Məsuliyyəti:** Şirkətin rəsmi təqdimat videoları və Zoom təlimləri xaricində aparılan təqdimatlar zamanı qarşı tərəfə yalnış məlumat verilməsi, şişirdilmiş vədlər edilməsi və ya rəsmi mövqedən kənar açıqlamalar verilməsi halında şirkət heç bir məsuliyyət daşımır.
7. **Fors-major:** Təbii fəlakətlər, fors-major hallar və nəzarətdən kənar səbəblər nəticəsində dəyən zərərə görə fermer məsuliyyət daşımır.
8. **Bölgü Nisbəti (51/49):** Bütün xərclər hesablandıqdan sonra təsərrüfatda yaranan artım 51/49 nisbətində bölüşdürülür:
    - 51% – fermaya;
    - 49% – Müstəqil Təmsilçilər (yatırımçılar) arasında paylanır. *(Məsələn, 1000 ədəd artım olduqda, 510 ədəd fermaya, 490 ədəd isə yatırımçılara məxsus olur).*

**Məsuliyyət və Mübahisələrin Həlli** FM Network şirkətinin möhürü olmayan heç bir müqaviləyə görə FM Network şirkəti məsuliyyət daşımır. FM Network Müstəqil Təmsilçisi özünün sahibkarlıq fəaliyyətini həyata keçirərkən yaranan bütün hüquqi mübahisələrin həllini öz öhdəsinə götürür. FM Network Müstəqil Təmsilçisi ilə «FM Network» şirkəti arasında yaranan bütün mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

**Maliyyə Bölüşdürülməsi** Aldığınız məhsulun məbləğinin:

- 1 hissəsi məhsul xərclərinə,
- 1 hissəsi məhsulun çatdırılmasına gedir,
- 1 hissəsindən ƏDV tutulur,
- 1 hissəsi komissiyalara gedir,
- 1 hissəsi əlavə xərclərə gedir.

**BƏYANAT VƏ İMZALAR** Yuxarıda sadalanan bütün şərtləri (o cümlədən Ferma Təsərrüfatı üzrə əlavə şərtləri) oxudum və öz istəyimlə «FM» Network şirkətinin Müstəqil Təmsilçisi kimi

düzgün və dürüst, Azərbaycan Respublikasının qanunvericilik normalarına uyğun fəaliyyət göstərəcəyimi bəyan edirəm.

**FM Network Müstəqil Təmsilçisinin bank kartının rekvizitləri:**

Kart sahibinin adı, soyadı: ___________________________

Bank kartının son 4 rəqəmi: **** ________________________

**FM Network MMC-nin Elektron E kartı** Direktor: F. N. Məhərrəmov

**FM Network Müstəqil Təmsilçisi**

Soyadı, adı, atasının adı: ____________________________ İmzası: _____________________